# XƏYALLA XƏYALDA SÖHBƏTİM



*Nəcməddin MÜRVƏTOV*

*(Əvvəli ötən saylarımızda)*

Mənim dediklərim
Susdum, danışmadım əvvəl xeyli çox,
Hər kəlməsi olan güllə, süngü, ox.
Bu söhbətdən sonra axı nə deyim,
Sanki kəsilmişdi taqətim, heyim.
Onu saxlamayım çox intizarda,
Başladım:"O döyüş gedirdi harda.
Tutdu bölüyünüz həmin səngəri,
Təəssüf itirib neçə əsgəri.
Şəhid düşdü o gün komandirin də,
Sadiqlik göstərdi sözü,vədində.
Demişdi:"Qardaşam, səndən, bunu bil,
Ruhum yox heç zaman ayrılan deyil"...

Şabrana yetişcək bu acı xəbər,
Böyükdən kiçiyə hamı səfərbər
Oldu, övladına böyük ehtiram
Göstərə toplanıb hey aram-aram,
Yönəldi birbaşa Surraya sarı,
Tutmuşdu izdiham bütün yolları.
Məktəb həyətinə oldu cəm hamı,
İnsan selininsə hələ davamı
Gəlirdi, hüznlə bircə cınqır-səs,
Çıxmırdı,olmadı hünərli bir kəs,
Atana,anana deyə əhvalı,
Bibingil göz yaşlı başı havalı
Həyətə girəndə atandan fəryad,
Anandan Allahım imdad,aman-dad
Sədası titrədi burda dağ-daşı,
Axdı camaatın seltək göz yaşı.
Mərasim quruldu böyük həyətdə,
Tək bu evdə deyil, hüzndü kənddə.

Gur:"Şəhidlər ölməz,vətən bölünməz",
Sədasıyla qalxdı gözə görünməz.
Ruhunun ardıyca izdiham dağa,
Qalxdı,cənnət evi sənə qurmağa.
Bir vaxtlar əkmişdin orda ağac da,
Sevgini gömdüyün həmin yamacda.
Yanıqlı kəlmələr gətirib dilə,
Səni tapşırdılar hə, son mənzilə.
Gətirib toyunu göz qabağına,
Atan həna qoyub əl-ayağına.
Dedi ölməmisən, oğul şəhidsən,
Neyləyək qoy təki sağ olsun Vətən.

Düz qırx dörd gün çəkdi bu qanlı savaş,
Üç min igid oldu bil sənə yoldaş.
Qurban canlarını verdiər ki tək,
Yetə muradına çoxillik istək.
Ordumuz Şuşanı xilas edən gün,
Azad nəfəs aldı millət büsbütün.
Müzəffər komandan, mübariz ordu,
Başa bu savaşı zəfərlə vurdu.
Dönmüşdük hamımız dəmir yumruğa,
Çökdü qarşımızda sındı şər-dığa.
Görüb sifətində şillə, tərsini,
Aldı birdəfəlik ağır dərsini.
Susdu bu mənfura tutanlar da züy,
Bu qüdrət önündə neylərdi boş küy.
Haqqı bərpa etdik əzm, hünərlə,
Səkkiz noyabrı tarixə zərlə
Yazdıq, şəhidlərin qanıyla həm də.
Dünyaya örnəktək bax bu dönəmdə.

Bir gün tədbirdəydim mən də Şabranda,
Poeziya evində,demə anan da
Ordaymış, danışdı etməklə heyrət
Dinlədim diqqətlə sonadək əlbət.
Dedi ki, dövlətin yetir qayğısı,
İnanın demirik bilir ki hansı.
Arzu-istəyimiz, diləyimiz var,
Həmən hazır olur, sizlər yazarlar
Minnət qoymamaqla bizlərə zərrə,
Bir şəhid barədə qoy yazsın hərə.
Onlar şəhid oldu,sinəmizə dağ
Çəkməklə, hələlik biz analar sağ
İkən, sorun deyək, ciyərparəmiz
Necə övlad olub yazın,yazın siz.
Anandan bu istək təkidli tələb,
Ona minnətimlə oldu ki səbəb.
Deyəm izn verin Xəyal barədə,
Bu tarixi yazım, aldım vaxt,vədə
Onunla görüşə gələm, sonra mən,
Dedim bir şeiri orda əzbərdən.

Şəhid olub gəlmişəm
Yola saldın, suda atdın dalımca,
Dedin: "Oğul zəfərlərlə dön geri".
Son kərə bax, bax boyuma doyunca,
Bax gör necə igid olub gəlmişəm.
Əziz ana, Şəhid olub gəlmişəm.



Düşmənlərin mən kəsmişəm amanın,
Puç etmişəm arzuların,gümanın,
Sel su təki axıdaraq al qanın.
Bağrın başın baxışımla dəlmişəm,
Əziz ana, Şəhid olub gəlmişəm.

Anladıqca vətən nədir,torpaq nə,
Kin nifrətim min qat artar düşmənə,
Ayrılıqla daş çəksəm də sinəmə,
Bil,ölümə qəh-qəh çəkib gülmüşəm,
Əziz ana,Şəhid olub gəlmişəm.

Sən əzizsən,Ana Vətən lap əziz,
Hər ikiniz müqəddəssiz,tər-təmiz.
Uğrunuzda inan şəksiz-şübhəsiz,
Bir andaca can sevinclə vermişəm.
Əziz ana, Şəhid olub gəlmişəm.

Yox,ağlama,axıtma göz yaşını,
Fəxrlə dur,uca saxla başını,
Qucaqlama məzarımın daşını,
Ruh olmuşam sanma,sanma ölmüşəm.
Yox,yox ana,Şəhid olub gəlmişəm.

Anan qarşıladı bizi həyətdə,
Pərişan görkəmdə,dərdli halətdə,
Çəkdi diqqətimi səliqə-səhman.
Bax bu gördüklərin bizə Xəyaldan
Yadigardır, ağac, güllər, çiçəklər.
Balamda o vaxtlar qabardı əllər.
İş-gücsüz durmazdı inan bircə dəm,
Ağac budayardı, əkərdi qələm.
Qurmaq, yaratmaqdı tək düşüncəsi,
Çoxdu,çoxdan da çox buna həvəsi.
Anan danışırdı,bircə suala,
Yoxdu da ehtiyac, dönmüşdüm lala.

Gəzdik bağ-bağçanı, çay kənarına
Endik, buradansa tək məzarına
Görüntü açılır. Endirməklə baş,
Dayandıq qarşında gözümüzdə yaş.
Dinlədim ananı bir neçə saat,
Verdi yetərincə dürlü məlumat.
Göstərdi adına olan muzeyi,
Oxuduq haqqında olan çox rəyi.
Burda dil açmışdı sanki şəkillər,
Nələr söyləmirdi, Allahım, nələr.
Anandı onların tək tərcümanı,
Nədən söz açırdı, yanırdı canı.
Sənin əlin dəyən olubsa hər nə,
Toplanıb qorunur sanki xəzinə.
Hərbi geyimin yaxalığında,
Orden medalların öz cəm halında.
Söz açır hamıya döyüş yolundan,
Hünər rəşadətin ən gen bolundan.
Deyim eşitdiyim, bildiklərimi,
Yəqin ki olar da kəsiri, kəmi,
Nələr soruşdumsa yaxınlarından,
Tərəddüd etmədən elə həmin an
Dedilər ki, Xəyal örnəkdi,örnək.
Gəlir bələləri dünyaya tək-tək.

Eviniz həmin ev, həyət o həyət,
Yaşamı sevincsiz, şadlıqsız əlbət,
Adınla bağlıdır bu qəmli əhval,
Ananın dilində-"Xəyal, ay Xəyal,"
Deyərək ətrafda gəzir, dolanır.
Hər an həsrətindən alışır,yanır.
Ondasan ruhunla büsbütün, inan,
Yaşat onu Xəyal, yaşa,t ol həyan.

### Epiloq

Borc bildi vətənə şəhidliyini,
Atıldı savaşa şiri-nər kimi.
Sonsuzdu düşmənə nifrəti, kini,
Sanki gözləyirdi "vur"a bir himi.

Şığıdı irəli, hər addımında
Artdı canındakı gücü, qüvvəsi.
Coşurdu yağını indi qanında,
Tutub əlləriylə boğmaq həvəsi.

Başının üstündən uçan mərmilər
Gözündə deyildi zərrəcə yox, yox.
Qovrdu önündən qaçan gədələr,
Bir deyil, beş deyil, hesabsızdı çox.

Keçirdi əzmiylə qayalıqları,
Yetər məramına, eyləməzdi şəkk.
Ötürdü dırmanıb dimdik divarı,
Önə səsləyirdi onu qəlb, ürək.

Bələdi qanına qarı düşməni,
Çökməklə önündə, qoydu diz yerə.
Qandırdı-"hünərin" bu deyil yəni,
Qələt eləmişəm deyə min kərə.

Hakimdi ruhuna hünər qeyrəti,
Gözünə ölümün şax, dik baxdı o.
Bitə ürəyinin sonsuz həsrəti,
Yaralı köksünə torpaq sıxdı o.

Borc bildi vətənə şəhidliyini,
Sevindi, ucalır həmin zirvəyə.
Çəkdi nəfəsinə ətri, iyini
Dağ-daşın, can verdi "o" oxqay" deyə.

